Səh. 2 Zəmanə uşaqları – Esmira Ələkbərli
Səh. 5 "Son zəng" yox, rəqabət və ticarət – Çiyalə Osmanova
Səh. 5 Sevinclə kədərin qarışdığı an – Validə Fətullayeva
Səh. 6 Qayğısız illər – Aytən Fətullayeva
Səh. 3 İçi çürük səmimiyyət – Elsevər Əhmədov
Səh. 4 BİRİNCİ SİNFƏ QEYDİYYAT VAXTI DƏYİŞDİRİLİB
Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY
2023-CÜ İL
№ 010 (181)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR VƏ "GÜRCÜ ARZUSU" ƏRDOĞANI YENİDƏN TÜRKİYƏ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı seçkilərdə inamlı qələbəsi və yenidən ölkə rəhbəri seçilməsi münasibətilə təbrik edib. Hökumət başçısı bu barədə tvitter hesabında yazıb.

"Türkiyə Respublikasının Prezidenti və Gürcüstanın böyük dostu Rəcəb Tayyib Ərdoğanı seçkilərdə qazandığı inamlı qələbə və yenidən ölkə rəhbəri seçilməsi münasibətilə təbrik edirəm! Türk xalqı öz fikrini açıqladı və biz də onların qələbəsinə qoşuluruq. Biz Türkiyə Respublikası ilə Gürcüstan arasında dostluq əlaqələrini və strateji tərəfdaşlığı daha da gücləndirməyə hazırıq", – deyə İ.Qaribaşvili qeyd edib.

Gürcüstanın hakim "Gürcü Arzusu" partiyası da Rəcəb Tayyib Ərdoğanı yenidən Türkiyə Prezidenti seçilməsi, "Cümhur İttifaqı"nı isə parlament çoxluğu əldə etməsi münasibətilə təbrik edib. Hakim partiya Ərdoğanın layiqli qələbə əldə etdiyini qeyd edərək bildirib:



"Türkiyə son illərdə nəzərəçarpan tərəqqi əldə edib və bu, seçkilərin nəticələrində özünü təsdiqləyib. Biz Gürcüstanın strateji tərəfdaşı və dost xalqına sülh, sabitlik, firavanlıq, Türkiyəyə və regiona tərəqqi arzu edirik".

"Gürcü Arzusu" Rəcəb Tayyib Ərdoğanın növbəti administrasiyası dövründə iki dost ölkə arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da dərinləşdiriləcək və gücləndiriləcəyinə inandığını vurğulayıb.

Qeyd edək ki, mayın 28-də Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turu yekunlaşıb. Rəcəb Tayyib Ərdoğan 52,18 faiz səs toplayaraq yenidən Türkiyə Prezidenti seçilib.

Xatırladaq ki, seçkilərin mayın 14-də keçirilmiş birinci turunda "Cümhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan 49,4 %, "Millət İttifaqı"nın namizədi Kamal Kılıçdaroğlu 44,9 %, "ATA ittifaq"ın namizədi Sinan Oğan 5 % səs toplamışdı.

## GÜRCÜSANIN MÜSTƏQİLLİYİNİN 105-Cİ İLDÖNÜMÜ GENİŞ QEYD OLUNUB



Mayın 26-da Gürcüstanda ilk müstəqil respublikanın qurulmasının 105-ci ildönümü geniş qeyd olunub. Paytaxt Tbilisi ilə yanaşı, ölkənin bütün bölgələrində Müstəqillik Günü münasibətilə təntənəli tədbirlər keçirilib. Əsas tədbir Tbilisidəki Azadlıq meydanında və mərkəzi Rustaveli prospektində baş tutub. Burada müxtəlif sərgilər, konsert proqramları, əyləncəli oyunlar, teatr tamaşaları təşkil edilib.

Azadlıq meydanında keçirilən rəsmi tədbirdə müxtəlif ölkələrdən qonaqlar, eləcə də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, səfir Faiq Quliyev, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay və Gürcüstanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Prezident Salome Zurabişvili, Baş nazir İrakli Qaribaşvili, müdafiə naziri Cuanşer Burçuladze, parlamentin sədri Şalva Papuaşvili və başqaları çıxışlarında gürcü xalqını bayram münasibətilə təbrik ediblər. Çıxışlarda Gürcüstanın Azərbaycan və Türkiyə ilə hərbi əməkdaşlığı yüksək qiymətləndirilib. Azərbaycanın müdafiə nazirinin bu tədbirdə iştirakı iki ölkə arasındakı dostluq və strateji tərəfdaşlığın bariz nümunəsi kimi qiymətləndirilib.

Sonra hərbi çağırışçıların andiçmə mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun hərbi orkestri "Mehtər", "Azərbaycan", "Əsgər marşı", "Azərbaycan əsgəri" və digər ifalarla çıxış ediblər.

Qeyd edək ki, 1918-ci il mayın 26-da Gürcüstanın Milli Şurası dövlət müstəqilliyi Aktını qəbul edib. Noe Jordanianın başçılıq etdiyi ilk demokratik respublika iki il yarım mövcud olub. Gürcüstan dövlət müstəqilliyini 1991-ci il aprelin 9-da yenidən bərpa edib.

## EPİDEMİOLOQLAR BU İL GÜRCÜSTANDA SUÇİÇƏYİNİN ARTACAĞINI BİLDİRİBLƏR

Epidemioloqlar bu il Gürcüstanda suçiçəyi xəstəliyinin artacağı barədə xəbərdarlıq ediblər. Bu barədə jurnalistlərə Gürcüstanın İmmunizasiya üzrə Məsləhət Qrupunun rəhbəri İvane Çixeidze məlumat verib.

O deyib ki, bu, təbii bir prosesdir, epidemiya 5 ilə qədər fasilələrlə dövri olaraq baş verir. Son epidemiya 2018-ci ildə olub və həmin ildə rəsmi olaraq 10 106 yoluxma halı qeydə alınıb. Adi illərdə isə bu rəqəm 3-4 min arasında dəyişib.

Epidemioloq bildirib ki, qızılcadan fərqli olaraq, varikella peyvəndi məcburi deyil və milli immunizasiya cədvəlinə daxil edilmir. Uşaqlarda xəstəlik çox vaxt yüngül keçir və onlar ömür boyu immunitet alırlar. Yetkinlik dövründə isə "uşaq suçiçəyi"nə dözmək daha çətindir.

Onun sözlərinə görə, Gürcüstanda uşaqlara suçiçəyinə qarşı peyvənd yalnız özəl immunizasiya mərkəzlərində edilə bilər.

Suçiçəyi xəstəliyinin alovlanması qızılca xəstəliyinin ağır proqnozu ilə üst-üstə düşür.



Son beş il ərzində uşaqların 20 faizdən çoxu peyvəndin tam məcburi ikiqat kursunu tamamlamamışdır və onların ən azı 10 000-i risk altındadır.

Baş immunoloqun sözlərinə görə, Gürcüstan Səhiyyə Nazirliyi valideynləri peyvənddən imtina etməməyə və qızılcaya qarşı vaxtında peyvənd etməyə çağırır. Suçiçəyi xəstəliyindən fərqli olaraq, qızılca daha təhlükəli xəstəlikdir, daha tez-tez ağırlaşmalara səbəb olur və statistikaya görə, ölüm halları daha yüksəkdir.

# ZƏMANƏ UŞAQLARI



İstəyirəm hər şeyə xeyli uzaqdan başlayım. Yox, elə də xeyli deyil, 25-30 il əvvəldən, o əvvəldən ki, ömrümüzün uşaqlıq dönəmi vardı. Özü də böyük hərflərlə. O dövr doğrudan yaşanırdı. Uşaqlıq öz məsumluğu, saflığı ilə...

Yadıma gəlir, Novruzun adətlərinin, digər bayramların, xüsusi günlərin necə "məttdi" qeyd olması. İndi uşaqlar bilmirsən forsundanmı, yoxsa ərincəklikdənmi, çox maraqsızdırlar. Bizim dövrun uşaqları əsl uşaq kimi idilər, bir böyüyüb, bir kiçilməmişdilər. Birdən düşünürəm ki, uşaqları uşaqlıq etməyə özümüz qoymuruq. Səbəb: hazırlıq dediyiniz məktəbsonrası məktəb. İnanın, əksər valideynlər uşaqları məcburi hazırlıqlara yönəldir. Özü də, sanki, bu bir öhdəlikdir. Olmalıdır. Sanki hazırlığa getməyən uşaqlara da xalq belə məzəli baxır. Bu, uşaqları yüklədiyimiz birinci ağırlıq, bəs sonra?

İnsan anatomiyası yazır ki, hər kəsin ürəyi öz yumruğu boydadır. Deməli, uşaqlarımızın ürəyi öz balaca dumbuzları boydadır. O balaca ürəkdə nələr yoxdur? İnsanın yaşadığı ömrün bütün tutumu qədər uşaqların ürəyində arzulu zaman var.

Con Lokk uşaqları ağ kağız adlandırırdı. Dünyaya fərd kimi gələn uşaq yaşadığı ömrün yaşatdıqları ilə şəxsiyyətə çevrilirlər. Bu zaman ən böyük rolu mühit oynayır.

Bəlkə də mənimlə razılaşmayacaqsınız, amma mən bu fərdiyyətdən şəxsiyyətə gedən yolda valideyni əsas götürürəm. Necə ki, ağacların aldığı formada bağbanın istəyi rol alır, əlbəttə, gen başqa istiqamətdə yol alır, amma sonra... Aristotel də deyibmiş ki, şəxsiyyəti mühit formalaşdırır.

Uşaq formalaşana qədər valideynin istiqaməti özünü göstərir. Yəqin hamımızın imkanı çatar uşaqları teatra aparmağa; gəzinti zamanı muzeyləri ziyarət etmək, amma bunu neçə valideyn edir. Bəli, məhz neçə? Dünyagörüşü park, bulvar və attraksionlardan ibarət deyil axı. 13-15 yaşa qədər dünyagörüşü valideynin töhfələri ilə formalaşır. Nəhayət, uşaq özü bütün eşitdikləri, gördükləri və öz təfəkkürü ilə analiz edərək özünü yaradır.

İndi təsəvvür edək ki, bu özü yaranana qədər valideyn nə iş görür? Uşağı maddiyyətlə təmin etmək, yedirtmək, geyindirmək, "telefon almaq", istədiyi əyləncələri təşkil etmək valideyn öhdəliyi deyil. Mən belə fikirləşirəm ki, bu gün valideynlər öz işinə çox bəsit yanaşırlar. "Qazanılmış manat" hekayəsini uşaqlıqdan hamımız bilirik. Əli yana-yana ocaqdan qəpikləri yığan gənc öz zəhmətinin qədrini bildi və atıldığı həyatı qiymətləndirməyi bacardı. Ananın "dəymə, uşaqdır uşağım" düşüncəsinə atanın danəndəliyi nöqtə qoydu. Fikir verirsinizmi, ən məşhur adamlar o çətinliklərdən çıxan adamlar olublar. Həyatın bərkinə-boşuna düşən uşaqlar daha mükəmməl olurlar.

Valideynlər uşaqları robota çevirirlər. Səhər dərsə, günorta hazırlığa; axşam dərs öyrən... arada qalan boşluq isə uşağın internet dönəminə gedir. Bu, çox səhvdir.

Uşaqlar uşaqlığını yaşamırlar. Gəncliyə çatanda dönüb geri baxsalar dərs və hazırlıqlardan başqa heç nə görmürlər. Bu dünyagörüşü ilə hansı şəxsiyyət olar? Kitab oxumaq bir başqa aləmdir, həyat təcrübəsidir, yaşanmış həyatın az zamanda analizidir. Uşaqlar bu analizləri keçmirlər, müzakirələr etmirlər. Maraqlı filmlərə baxmırlar, filmlərdən, bədii əsərlərdən ibrətli nümunə götürmürlər. Bu isə gələcəyə pis nəticədir. İnsanın uşaqlıqda yaşadıqları onu formalaşdırır. Ən böyük əsərlər də, ən böyük kəşflər də uşaqlığın yönümündən asılıdır.

Əziz valideynlər, virtual dünyamızın bu keşməkeşində gəlin balalarımızı birlikdə bu mühit burulğanlarından çıxaraq. Əvvəla, zaman ayıraq, onsuz da gələcək zaman özü öz qayğıları ilə onu bizdən uzaqlaşdıracaq. Odur ki, 18 illik zamanı boşa xərcləməyək. O illərdə qazanılanlar sonrakı yaşlara xərclənir. Qazandıqları bizim ona verdiyimiz dünyagörüşüdür, təməldir. Hansı ki, həyatı boyu bu təməldən bəhrələnəcək. 18-dən sonra istəsək də onları ətrafımıza çəkib yol göstərə bilməyəcəyik. Gəlin uşaqlarımızı uşaq kimi böyüdək. Onların istəkləri ilə, nazlarıyla oynayaq. Böyük pullar xərcləmədən böyük işlər etmək olar; istəyəndə dağa qalxaq, istəyəndə futbol oynayaq. Uşaqları dostluğa, doğruluğa, doğmalığa alışdıraq, bağlılıq aşılayaq, zəhmətə alışdıraq. Dərsini oxusun deyə "ye-oxu-yat" meşşanlığına sürükləməyək.

Bir də ayılıb görəcəyik, uşaq məktəbi qurtardı, məzun da oldu, ailə də qurdu. Öz qazandığı dünyagörüşü ilə ailəsini idarə edəndə mən səndən hələ doymamışam deyə müdaxilə edə bilməyəcəyik. Uşaqlarımızla uşaqlıqda valideyn olaq, onları yönəldək. Bu, həyatın gərdişidir. Valideyndən aldığımızı yalnız övladlarımıza uşaqlıqda qaytara bilirik. Ona görə nəvəni çox istəyirlər; öz övladlarına verə bilmədiklərini nəvəyə vermək istəyirlər. Gəlin uşaqlarımızı elə böyüdək ki, itirilmiş zamanı nəvə üzərində qaytarmağa çalışmayaq. Uşaqlarımızın uşaqlığını nəvədə axtarmayaq.

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# AZƏRBAYCANIN ELM VƏ TƏHSİL NAZİRİ GÜRCÜSTANDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB

Gürcüstanda səfərdə olan Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev mayın 19-da Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Görüşdə iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətləri diqqət mərkəzində olub.

Söhbət zamanı müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sahəsində mövcud əməkdaşlığın inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Bu xüsusda iki ölkənin elm və təhsil qurumları arasında 2022-ci ildə imzalanmış sazişin əhəmiyyəti qeyd edilib.

Tərəflər gələcəkdə iki ölkə arasında elm və təhsil sahəsində mövcud məhsuldar əməkdaşlığın daha da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını vurğulayıblar.

Eyni zamanda, ali təhsil müəssisələri arasında əlaqələr, xüsusi peşə təhsili sahəsində birgə əməkdaşlıq məsələləri də müzakirə olunub.





Söhbət zamanı Azərbaycanın ADA Universiteti ilə Gürcüstanın üç aparıcı təhsil ocağı arasında imzalanan müqavilələrin əhəmiyyəti xüsusi qeyd olunub.

Görüşdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın səfiri Faiq Quliyev və Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari iştirak ediblər.

Bizim Azərbaycan ilə təhsil və elm, ümumi və ali təhsil sahələrində, elmi tədqiqat institutları səviyyəsində çox yaxşı əməkdaşlıq təcrübəmiz var. Biz bu təcrübəni daha da genişləndirmək niyyətindəyik. Bu sözləri jurnalistlərə müsahibəsində Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari söyləyib.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevlə çox məhsuldar və səmərəli görüş keçirdiyini bildirən Giorgi Amilaxvari bildirib: "Görüşdə elm və təhsil sahələrində əməkdaşlığa dair səmərəli müzakirələr apardıq və əməkdaşlığı daha da dərinləşdirmək niyyətində olduğumuzu vurğuladıq".

G.Amilaxvari qeyd edib ki, Gürcüstanda səfərdə olan Azərbaycan nümayəndə heyəti ilə müəllimlərin ixtisaslaşmasını artırmaq, dərsliklərin məzmununun inkişafı, gürcü və Azərbaycan dillərində tədrisi inkişaf etdirməklə bağlı da fikir mübadiləsi aparılıb.

"Mən əminəm ki, Azərbaycan ilə elm və təhsil sahələrində gələcək əməkdaşlığımız daha fəal olacaq", – deyə G.Amilaxvari vurğulayıb.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında Gürcüstanın azərbaycandilli məktəbləri üçün kadr məsələsinə toxunaraq qeyd edib ki, Qazax Müəllimlər Seminariyasında Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərin müəllimləri üçün yaxşı imkanlar var, seminariyada Gürcüstanın azərbaycandilli məktəbləri üçün yüksəkixtisaslı kadrlar hazırlamaq olar.

Nazir qeyd edib ki, gürcü həmkarı ilə görüşdə Gürcüstandakı azərbaycandilli məktəblərin və Azərbaycandakı gürcüdilli məktəblərin dərsliklərinin keyfiyyətinin yaxşılaşdırılması və uyğunlaşdırılması istiqamətində əməkdaşlıq diqqət mərkəzində olub. Tərəflər dərsliklərin məzmunu və uyğunlaşdırılması məsələsində əməkdaşlığın genişləndirilməsi, daha da inkişaf etdirilməsi barədə razılığa gəliblər.

E.Əmirullayev deyib ki, Gürcüstanda yaşayan soydaşlarımızın öz dillərini, mədəniyyətlərini və milli kimliklərini daha yaxşı öyrənməsi və əxz etməsi baxımından məktəbin rolunun artırılması, azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiyası baxımından gürcü dilini öyrənməsi qarşıya məqsəd olaraq qoyulub. Görüşdə müəllim hazırlığı məsələsi də ayrıca müzakirə olunub.

"Eyni zamanda, ADA Universiteti tərəfindən Qazax Müəllimlər Seminariyasının bərpasından sonra orada yaradılmış şəraitlə bağlı həmkarlarımıza məlumat verdik. İnanırıq ki, həmin müəssisə həm də Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərin təhsilverənləri üçün yaxşı imkanlar açır", – deyə E.Əmrullayev vurğulayıb.



Nazir deyib ki, müəllim hazırlığı ilə bağlı birgə və ikili proqramların hazırlanıb həyata keçirilməsi məsələsi də müzakirə olundu. Hazırda Azərbaycanda və Gürcüstanda müəllim hazırlığı proqramları bir-birindən fərqlidir. Bu istiqamətdə ortaq məxrəcə gəlmək vacibdir. Eyni zamanda, Azərbaycanda fəaliyyət göstərən gürcüdilli məktəblərin də müəllim heyəti üçün müvafiq təlimlərin keçilməsi mühüm əhəmiyyət daşıyır.

# İÇİ ÇÜRÜK SƏMİMİYYƏT



Səmimiyyətsiz insanlar, ümumiyyətlə, ətraflarındakı insanları aldatmağa çalışar və öz çıxarları üçün fərqli taktikalar istifadə edərlər. Bu insanlar səmimiyyətdən xəbərsiz olaraq yaşamaqdadırlar. Hər zaman səmimiyyətsizlikləri ortaya çıxar və saxta gülüşlər sərgiləyərlər. Bu tiplərdən uzaq durmalı və fitnələrindən qorunmalıyıq.

Səmimiyyətsiz insanlar, tez-tez yalan danışarlar və başqalarının müvəffəqiyyətlərini tərifləmək yerinə ona zərər verməyə çalışarlar. Bu davranış insanların özlərinə etibarını itirməsinə, xəyal qırıqlığına səbəb olar.

Səmimiyyətsiz insanlar çox vaxt insanların bir-biri ilə olan əlaqələrini, işini, əməkdaşlığını pozmağa qədər gətirib çıxararlar. Hər vaxt öz fikir və mənfəətləri istiqamətində hərəkət etmək istəyən bu kəslər digərlərinin fərqli fikirlərini anlamaz və onlarla uyğunlaşmağa çalışmazlar.

Səmimiyyətsiz insanlar ətraflarındakı insanlara nə qədər zərər verdiklərini qavraya bilmədiyi kimi, yarış atlarında olduğu kimi, sadəcə hədəflərinə meyillidirlər. Özlərini düşünərlər, əhəmiyyətli olan digər insanların hissləri və düşüncələri onlara maraqlı olmaz. Bu insanların davranışları davamlı qarşıdurmalar və ya mübahisələr yarada bilər, əlaqələri pozar.

Təbii ki, səmimi görünən, amma əslində səmimiyyətsiz insanlarla əlaqədar bir çox yazı mövcuddur. Bu cür insanlarla qarşılaşmaq tez-tez başımıza gəlir. Onların gerçək üzlərini ortaya çıxarmaq və onlardan qorunmaq da mümkündür. Təcrübələrimdən yola çıxaraq bu yazını yazmaq qərarına gəldim və bir neçə maddə şəklində qeyd etmək istəyirəm:

1. Hərəkətlərinə, sözlərinə və davranışlarına diqqət yetirin. Səmimiyyətsiz insanlar, ümumiyyətlə, söylədikləri ilə etdikləri arasında ziddiyyət yaşayarlar. Bu səbəblə söylədikləri ilə etdikləri arasındakı əsassızlıqları fərq etməyə çalışın.

2. Öz hisslərinizə güvənin. Əgər bir adam sizinlə səmimi bir şəkildə maraqlanmır və ya sizdən yalnız öz mənfəətləri istiqamətində faydalanmağa çalışırsa, bu vəziyyəti fərq etməniz lazımdır. Öz hisslərinizə güvənin və bu cür insanlardan uzaq duraraq araya məsafə qoyun.

3. Ünsiyyət qurduğunuz kəsləri diqqətlə dinləyin. Səmimiyyətsiz insanlar çox vaxt özlərini önə çıxarmaq və başqa insanların diqqətini çəkmək üçün danışmağa meyillidirlər. Ancaq həqiqətən səmimi olan insanlar sizi dinləməyi və sizinlə səmimi bir bağ qurmağı seçərlər.

4. İlkin qiymətləndirmələrinizi bir kənara buraxın. Bu, sizə səmimiyyətsiz insanları tanımağınızı çətinləşdirə bilər. Bu səbəblə hər kəslə açıq fikirli bir ünsiyyət qurun və onların gerçək niyyətlərini anlamaq üçün gözləyin.

Nəticə etibarı ilə, səmimiyyətsiz insanlar cəmiyyətdə ciddi dostluqların, tanışlıqların, qohumluqların ünsiyyət və əlaqələrində bir növ koronavirus rolu oynayaraq uzunmüddətli münasibətlərə məsafələr qoyurlar. Buna görə də insanların gerçək niyyətlərini anlamaq və səmimiyyətsiz insanlardan uzaq durmaq əhəmiyyətlidir. Səmimiyyət cəmiyyətin təməl daşlarından biridir və bu, onun yoxluğu zamanı nə qədər əhəmiyyətli olduğunu açıqca göstərir və münasibətlərimizi bir daha nəzərdən keçirməmizi tələb edərək yolumuzda daha sağlam addımlar atmağımızı nümayiş etdirir.

**Elsevər Əhmədov**

# RƏFLƏRƏ QALDIRILMIŞ DUYĞULAR

İnsan ətdən və sümükdən ibarət gözlə görülən bir canlıdır. Lakin, ən başlıcası, insanı insan edən onun daşıdığı duyğulardır – digər məxluqatdan ayırd edən, üstün qılan, sahib olduğu duyğulardır. Duyğular haqqında geniş yazmaq olar, fərqli duyğular var. Bəzi duyğuların yoxluğu başqa bir duyğunu doğurur və ya bəzi duyğunun həddən artıq olması yenə başqa bir duyğunu meydana gətirir.

Cəmiyyət içərisində hüzurla yaşaya bilməmiz üçün bütün duyğuların zamanında və qədərində yaşanılması şərtdir.

Yazdığım hər məqalənin xidmət etdiyi müəyyən məqsəd vardır. Bu məqsədlər cəmiyyətimizi olduğundan daha yüksəyə daşımağa xidmət etməkdədir. Ümid edirəm ki, əziz oxucular məqalələrimizdən faydalanırlar və bu məqalələr cəmiyyətdə öz əksini gec də olsa tapacaq. Bu da ümid adlı bir duyğudur.

Bu dəfəki məqalədə şəxsən məni və ətrafda olan insanları narahat edən bir mövzu haqqında yazmaq istəyirəm. Bu, yuxarıda bildirdiyim kimi, duyğular haqqında olacaq, ancaq duyğu geniş bir qavram olduğu üçün sadəcə bir neçəsinə toxunacağam.

Bu gün insanların arasında yaranan münaqişələr, hüzursuzluqlar, əsasən də, duyğu əskikliyindən irəli gəlir. Biz insan olaraq gözlə görülən və əllə tutulan şeylərə o qədər zaman ayırırıq, onlarla o qədər məşğul oluruq ki, gözlə görülməyən, əllə tutulmayan, lakin bizi biz edən şeyləri unuduruq, yaşamırıq və bəlkə də yaşamaq istəmirik. Axı duyğular bəzən zəhmət tələb edən olur. Modern dünyanın modern insanları olan bizlər zəhmətdən məişət həyatında qaçdığımız kimi duyğu həyatında da qaçırıq. Məişətdəki zəhmətdən qaçışımızın yerini istehsal olunan avadanlıqlar doldurur, lakin duyğudan qaçışımızı dolduracaq heç bir şey yoxdur, ixtira olunmayıb, oluna da bilməz. Çünki duyğular biz insanlara məxsusdur.

Duyğuların yaşanılmaması bizləri robotlaşmağa, eqoizmə, yalnızlaşmağa apardığından xəbərdarıqmı? Günümüzdə ən aktual olan duyğu demək olar ki, sevgidir, təbii ki, saf olanını tapa bilmək böyük əmək istəyir. Sevginin adı var, adın altı boşaldılıb, dəyişdirilib, yenilənib, ancaq, gəl gör ki, bu yenilik cəmiyyətdə böyük fəsadlar meydana gətirib. Aktual olan yeganə duyğunu belə düzgün və lazımınca yaşamırıq.

Cəmiyyətin ən zəif olan duyğusu isə, belə deyərdim ki, vəfa duyğusudur. Çünki bu duyğu özü ilə birgə fədakarlıq kimi ülvi bir duyğunun da yaşanmasını istəyir. Modern insan olaraq bizlərə bu duyğular çətin və ağır gəlir. Ancaq düşünmürük ki, normal həyatın qovhaqovunda tələşlə qaçan bizlər duyğuları bu qədər gözdən kənar etməməliyik. Axı həyatda çoxu zərər olan şeylərin azı da zərərdir.

İstədiyimiz duyğunu yaşayıb, istədiyimizi rəfə qaldıra bilmərik. Yaşadığımız müddətdə rəflərə qaldırdığımız bütün duyğuları zamanında və qədərində yaşamağı bacarmalıyıq. Bacarmazsaq öz əlimizlə öz gələcəyimizi mexanizmləşdirmiş olarıq.

Cəmiyyətimizin hər bir fərdini bu fikir üzərində düşünməyə dəvət edirəm. Ümidvaram ki, bu dəvət boşa çıxmayacaq və özü ilə birgə xoş nəticələr doğuracaq.

**Lamiyə Hacıyeva**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## BİRİNCİ SİNFƏ QEYDİYYAT VAXTI DƏYİŞDİRİLİB



2023-2024-cü tədris ili üçün ümumtəhsil müəssisələrində şagirdlərin birinci sinfə qeydiyyatı və vacib sənədlərin verilməsi vaxtı dəyişdirilib.

Birinci siniflərin qeydiyyatı aparılan zaman Gürcüstan Təhsil və Elm Nazirliyi və Parlamentin Təhsil və Elm Komitəsinin birgə qərarı ilə "Ümumi təhsil haqqında" qanunda məktəbə qəbul yaşı ilə əlaqədar dəyişiklik edilib. Qeyd olunan dəyişikliyə görə, 2023-2024-cü tədris ilində birinci sinfə əlavə olaraq 16 sentyabrdan 1 noyabra qədər 6 yaşı tamam olacaq uşaqlar da qəbul olunacaqlar.

Bundan irəli gələrək, Gürcüstan təhsil və elm nazirinin 2023-cü il 15 may tarixinə olan N543304 sərəncamına əsasən, birinci siniflərin qeydiyyatı və məktəbə qəbul olunması üçün vacib sənədlərin təqdim olunması aşağıdakı qaydada müəyyən edilib:

Qeyd edək ki, birinci sinif şagirdlərinin məktəbə qəbulu üzrə **I mərhələ 2023-cü il martın 6-sı başlayıb, martın 20-si bitib.** Bu mərhələdə məktəblərdə xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçiblər.

**II mərhələdə qeydiyyat 2023-cü ilin 19 may tarixinə qədər davam edib.** Bu mərhələdə aşağıdakı kateqoriyaya aid uşaqlar qeydiyyatdan keçiriliblər:

• Eyni məktəbdə oxuyan bacı və qardaşlar;

• Valideyni məktəbin əməkdaşı olan uşaqlar;

• Eyni zamanda birinci sinfə ikidən çox uşağı daxil olan ailələrin uşaqları.

Dəyişikliyə əsasən, **III mərhələ – ümumi qeydiyyat 8 iyunda başlayacaq və 23 iyuna qədər davam edəcək.**

Ümumi qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində – **registration.emis.ge** ünvanında elektron olaraq həyata keçiriləcək. Qeydiyyatı valideyn və ya qanuni nümayəndə həyata keçirməlidir. Elektron qeydiyyat olunan şagirdin qəbul olunması üçün vacib sənədlərin məktəblərə təqdim olunması 26 iyundan 12 iyula qədər həyata keçiriləcək. Müəyyən edilmiş vaxtda sənədlər təqdim olunmazsa elektron qeydiyyat avtomatik olaraq ləğv olunacaq.

**IV mərhələdə qeydiyyat 17 iyuldan 28 iyula qədər məktəblərdə həyata keçiriləcək.** IV mərhələdə azad olunan vakant və ya boş qalan yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyənlər və ya qeydiyyatda dəyişiklik etmək istəyənlər yerləşdiriləcəklər.

Şagirdin IV mərhələdə qeydiyyatını valideynin və ya qanuni nümayəndənin təqdim etdiyi vacib sənədlər əsasında ictimai məktəb təmin edir.

**Birinci sinfə qəbul üçün lazım olan vacib sənədlər:**

• Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşadığı ünvan və telefon nömrəsi qeyd olunmalıdır. Ərizə Gürcüstanın Ümumi İnzibati Məcəlləsinin 78-ci maddəsi ilə nəzərdə tutulmuş digər tələbləri qane etməlidir, qanuni nümayəndənin şəxsiyyət vəsiqəsinin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənəd xarici dildə təqdim olunarsa Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş qaydada gürcü dilinə tərcümə edilməlidir.

• Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənəd xarici dildə təqdim olunarsa Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş qaydada gürcü dilinə tərcümə edilməlidir.

**Gürcüstan Təhsil və Elm Nazirliyi valideynləri qeydiyyat müddəti və şərtlərlə tanış olmağa çağırıb ki, uşaqlarını vaxtında, maneəsiz birinci sinfə qeydiyyatdan keçirə bilsinlər.**

## PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT BAŞLAYIB




"Modus" kolleci Rustavi və Marneulidə dövlət tərəfindən 100 % maliyyələşdirilən peşə təhsili proqramlarına qeydiyyat elan edib. Qeydiyyat mayın 22-si başlayıb və sentyabrın 10-na qədər davam edəcək.

Qeyd edək ki, peşə təhsili üzrə fəaliyyət göstərən "Modus" kolleci Rustavi və Marneuli şəhərlərində yerləşir. Qeydiyyat aşağıdakı proqramlar üzrə həyata keçirilir:

**RUSTAVİ:**

• Saça qulluq – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Gipskarton konstruksiyalarının qurulması – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Santexnika sistemlərinin istismarı – təhsil müddəti 15 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Tikiş istehsalı – təhsil müddəti 21 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Qaynaq işi – təhsil müddəti 7 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Elektrik – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Veb-texnologiyalar – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: tam orta təhsil (12-ci sinif);

• İnformasiya texnologiyaları – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Bağçılıq – təhsil müddəti 16 ay, proqrama qəbul üçün ilkin şərt: tam orta təhsil (12-ci sinif);

• Minik avtomobilinin ehtiyat hissələrinin təmiri – təhsil müddəti 11 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Minik avtomobilinin mühərrikinin təmiri – təhsil müddəti 11 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Minik avtomobilinin elektrik və elektron sistemlərinin təmiri – təhsil müddəti 18 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Nəqliyyat vasitələrinin boyanması – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Kompüter şəbəkəsi və sistemləri – (inteqrə edilmiş) təhsil müddəti 3 il, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Veb-texnologiyalar – (inteqrə edilmiş) təhsil müddəti 3 il, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Kulinariya – təhsil müddəti 15 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

**MARNEULİ:**

• Meyvəçilik – (inteqrə edilmiş) təhsil müddəti 3 il, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• İnformasiya texnologiyaları – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Elektrik – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Müsahibat uçotu – təhsil müddəti 21 ay, proqrama qəbul üçün ilkin şərt: tam orta təhsil (12-ci sinif);

• Dayə – təhsil müddəti 24 ay, proqrama qəbul üçün ilkin şərt: tam orta təhsil (12-ci sinif);

• Tərəvəzçilik – təhsil müddəti 12 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif);

• Tikiş istehsalı – təhsil müddəti 21 ay, proqrama qəbul üçün ilkin şərt: baza təhsili (9-cu sinif).

***Əgər onlayn qeydiyyat zamanı suallarınız yaranarsa, yaxud qeydiyyatdan keçə bilməsəniz "Modus" kollecinin feysbuk səhifəsi ilə əlaqə saxlaya və ya qeyd olunan ünvanlara müraciət edə bilərsiniz: Rustavi şəhəri, Jiuli Şartava küçəsi 4; Marneuli şəhəri, Yağlıca küçəsi (SOCAR-ın baş ofisinin qarşısı).***

***Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi/doğum şəhadətnaməsi və elektron poçtunuzun (imeyl) olması vacibdir.***

***Qaynar xətt: Rustavi – 577408734; Marneuli – 555224186.***

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# "SON ZƏNG" YOX, RƏQABƏT VƏ TİCARƏT



Uşaq ikən bəzən məktəbdə uşaqlarla dalaşanda müəllimlərin "bir-biriniz üçün elə darıxacaqsınız, burnunuzun ucu göynəyəcək" deyib onları barışdırmaq səhnələri yaxşı yadımdadır. O vaxtlar burnun ucunun niyə göynədiyini tam dərk etmirdim, amma indi sözün əsl mənasında yaşayıram və adım kimi əminəm ki, tək də deyiləm. Sən demə bu cür sözləri dərk etmək üçün məzun olmaq lazım imiş.

Məzun demişkən, məktəbi bitirən hər bir kəsə yeni həyatında uğurlar arzulayıram!

Elə yeni həyat demişkən, mən heç onun da nə olduğunu bilmirdim. Bütün müəllimlər "Son zəng"də 12-ci siniflərə yeni həyatlarında uğurlar arzulayırdılar. İndi içi mən qarışıq bir çox məzun o yeni həyatı yaşayır. Əvvəllər elə düşünürdüm, heç nə dəyişməyəcək, adi günlərimiz kimi olacaq, lakin elə deyil. Bilmirəm nədəndir, özümü boşluqdakı kimi hiss edirəm. Elə bil nəyisə itirmişəm. Sanki gün 24 saatdan artıq olub, axşam olmaq bilmir. Vaxtımı boş keçirməmək üçün əvvəlki ilə müqayisədə daha çox test işləyirəm. Amma bu duzu kəm olmuş bir yeməyə oxşayır, dadı yoxdur. Sən demə, məktəbin həyatımda əhatə etdiyi sahə düşündüyümdən daha çox imiş. Elə bu hiss etdiyim boşluq da məhz onun özüdür. Amma deyirlər bu duyğular gəl-di-gedərdir. Tələbə adını qazandıqdan sonra keçib gedəcək. Allah hər bir məzuna tələbə adını qazanmağı nəsib etsin!

Onsuz da hər birimiz birinci sinfə başlayanda da, yeni məktəb həyatına başlayanda çətinlik çəkmişik. Necə ki, ona öyrəndik, məktəbə getməyi vərdiş halına gətirib 12 il oxuduq, bu da elə. Bütün bu hisslərə baxmayaraq məzun olmaq, əvvəllər kənardan tamaşa etdiyimiz "Son zəng"in baş rolunda özümüzün olmağımız çox yaxşı bir hissdir. Hələ bir il əvvəl həyəcanla məktəbin həyatində "Son zəng" günü məzunların çıxışını gözləyirdik. Bu il isə bizi gözləyirdilər. Amma yenə elə hiss edirdim ki, elə bil məzun olan biz deyilik. Kənardan özümüzə baxırdım. Elə bil şirin bir yuxu görürdüm. Amma heyif ki, şirin yuxuma da duz tökdülər. Məktəbin həyətindəki podiuma çıxıb hamıya saç düzümümüzü, makiyajımızı, geyimimizi, boy-buxunumuzu göstərdikdən sonra məktəbin zalına getdik. Bax burada azərbaycanlı olduqlarını demədən göstərənlər oldu. Zala o qədər adam yığışmışdır ki, elə bil burada pulsuz kartof, soğan paylayırdıq. Az qalırdı camaat bir-birini əzsin. Hələ sonra da deyirlər azyaşlı uşaqları "Son zəng"ə niyə buraxmırlar. Belə vəziyyətdə mən öz məzun yoldaşlarımı tapa bilmirdim. İçəridə oksigen çatışmazlığı başlamışdı. Mən güclə nəfəs alırdım. İndi sən gəl yaşlı müəllimlərimizi fikirləş. Hələ səs-küyü demirəm. Amma onun həlli asandır. Həmişəki kimi, hökmlü bir müəllim mikrafonu əlinə alır, gözünü yumub sözünü deyir. Sakitlik yarananandan sonra məzunlar dəvət olunur, onlar əyləşdikdən sonra da keçilir mini konsertə. Amma bu il, təəssüflər olsun ki, məzunlar ayaq üstə qaldı. Səbəbi də 300 nəfərlik zalda oturmağa yerin olmaması idi. İndi görün nə qədər adam var idi. Buna məzunlardan başqa arxada ayaq üstə duranları da əlavə edib toplayın.

Mini konsertimiz isə rəqs müsabiqəsi kimi idi, çünki bu il ağırlıq rəqslərdən yana idi. Amma əyləncəli idi. Zalda adam az olsa idi bəlkə daha yaxşı olardı. Amma bunun bir səbəbkarı elə biz məzunlarıq. Hələ 6-7 ay əvvəl müəllimlərimizdən biri üzərində "Son zəng"ə dəvətli olanlara ad, soyadının və direktorun möhürünün olduğu bir kağız verməyi tövsiyə etmişdi. Təəssüflər olsun ki, biz bunu etmədik və peşman da olduq. Mənsə gələcək məzunlara kağız yox, bilet satmalarını təklif edirəm. Artıq yox, biletin birini üç lariyə satsalar qənimətdir. Onsuz bizim millətdə bilet almaq mədəniyyəti yoxdur. Bəlkə belə olsa dinc başla "Son zəng" keçirmək ola. Həm, bəlkə, az da olsa qazanılan pulla xərclərini ödəyərlər.

Xərc demişkən, yaxşısı budur sözü uzatmadan mətləbin başlıqla əlaqəli hissəsinə keçim. "Son zəng"də insanların həvəslə izlədiyi o səhnələr, rəqslər, dinlədikləri musiqilər, şeirlər – hamısının arxasında böyük əmək və xərclər durur. Aylar əvvəldən rəqs müəllimi axtarıb rəqs öyrənmək, ən yaxşı fotoqrafı və operatoru tutmaq, dizayner tutmaq, elə tutmaq da tutmaq...

"Son zəng"ə bir ay qalmış bu tutulan şəxslər Afrika kərkəsi kimi başlayırlar başımızın üstündə fırlanmağa. Hamı özünü tərifləyir, öz işində bir nömrə olduğunu deyir. Gəlin düzünü deyək ki, hamısının məqsədi bizim üçün ən yaxşısını etmək deyil, "Son zəng"dən artıqlaması ilə xeyir əldə etməkdir. Bizə bu il təmənnasız kömək edən oldusa, o da "Beez" Uşaq Teatrnın qurucusu, əziz və dəyərli Binəli İslamoğlu idi. Tam təmənnasız səhnəciyimizin seçilməsindən tam hazır olmasına qədər köməklik etdi. Buradan ona öz minnətdarlığımızı bildiririk! Onun sağ əli məqsəd güdənlərin başına.

Bir də "Son zəng"in rəqabət hissəsi var ki, bu on ikinci siniflər arasında normal bir hala çevrilib. Ən yaxşısı bizim olsun deyə məqsəd güdənlərə hərrac açırıq. Şüarımız "onlar edib, biz də geri qalmayaq"dır. Sanki hansı sinfin çıxışı daha əla alınacaq deyə mərc eləmişik. Və bütün bunları öz yaxınlarımızdan çox 10-15 il bundan qabaq məktəbi bitirib, hər il "Son zəng"ə gəlib "heyif deyildi bizim vaxtımızda..." deyənlər üçün edirik. Əslində onlar da haqlıdır. Çünki uşaqlar artıq passiv olublar, hələ oğlanları düzəməlli bir səhnəcikdə iştirak etməyə razı salmaq olmur. Problem də nədir? O qədər camaat bizi izləyəcək. Mən də sözü haraya çəkirəm orada ucu zala dolanlara çıxır.

Hər nə isə, onsuz da deyildiyi kimi, "Son zəng" ömrümüzdə bircə dəfə olur". Ondan da, şükür Allaha, hamı öz xeyrinə faydalanır.

İndi bu yazını oxuyanda deyəcəklər "Son zəng"lə bağlı bütün ayıbları açıb tökdü, nə bilim nə...

Hamının fikri özünə. Həmişə səhnənin pərdəarxasına da baxmaq lazımdır. Mən şəxsən baxanda xaos görürəm. İyirmi birinci əsrdə yaşasaq da hələ içimizdə əcdadlarımızın vəhşiliyi qalıb. Bu cür fürsətlər ələ keçəndə onu nümayiş etdirməkdən çəkinmirik. Nə özümüzə hörmət edirik, nə də məzuna. Elə ona görə də bu cür yazılar meydana çıxır. Nə isə... Allah özü sonumuzu xeyir etsin!

**Çiyalə Osmanova**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# SEVİNCLƏ KƏDƏRİN QARIŞDIĞI AN



"Son zəng" dedikdə kimimiz üçün 11, kimimiz üçün isə 12 sezonluq film ağıla gəlir – məktəbə atdığımız ilk addımda necə ağladığımız, keçirdiyimiz yaxşı və pis günlərimiz...

"Son zəng" günü gözümüzün önündən bir film kimi keçdi. Bizə doğma olan məktəbdən, valideynlərimizdən çox gördüyümüz, bizə məsləhətlər verən, dərslər keçən, qələm tutmağı öyrədən müəllimlərimizdən, yaxın olduğumuz dostlarımızdan ayrılmaq istəmirdik...

Dərsdə hər zaman zəngin çalınmağını gözləyən uşaqlar "Son zəng" günü o zəngin çalınmağını istəmirdi. Müəllim tapşırıq verdikdə bir-birindən köçürən, sakit, dəcəl, özünü məktəbin sahibi hiss edən, müəllimlərlə mübahisə edən, gizlin yemək yeyən, dərsdən qaçan uşaqlar idik. Artıq bunların heç birini edə bilməyəcəyik. Üzümüzdə məzun olmaq sevinciylə yanaşı kədər də var idi. Məktəbin bizim həyatımızda olan böyük rolunu məhz məzun olduqda anladıq. Hələ də aşağı siniflərdə oxuyarkən hər "Son zəng" ərəfəsində "biz nə vaxt məzun olacağıq, vaxt nə gec keçir" dediyimi xatırlayıram. Bu cümləni xatırladıqca geriyə qayıdıb yenə o illəri qaytarmaq istəyirəm. Gec keçən o vaxtlar bir "Son zəng" ilə bitdi. Artıq bəzilərimizin məcbur etdikləri – səhər tezdən oyanmaq, gecə-gündüz dərs yazmaq və sair məcburiyyətlər yoxdur. Məktəb həyatından çıxıb müstəqil həyata addım atdıq. Məktəbdə keçirdiyimiz illər də geriyə qaytara bilməldiklərimizdən oldu...

"Son zəng"ə aylar qaldıqda sevinərək planlaşdırdıq, tamaşalar, şeirlər, rəqslər hazırlamağa başladıq. Rəqslərimiz üçün ayrı-ayrı geyimlər götürdük. Bir sözlə, əlimizdən gələnin ən yaxşısını etməyə çalışdıq. Bizim üçün başqa bir gün olacaqdı. Çünki keçən illərdən fərqli olaraq bu il biz onlara deyil, onlar bizlərə tamaşa etmək üçün gələcəkdilər. Hər kəsin diqqəti bizdə olacaqdı. Hər nə hazırlamışdıqsa heç bir səhv etməmək üçün bütün günü təkrar edirdik. İstirahət günlərində belə məktəbə gedirdik. Hazırladığımız tamaşa, şeirlər və rəqslər istədiyimiz kimi olsa da, zalda baş verənlər heç də istədiyimiz kimi olmadı. Biz həyəcanla gözləyirdik ki, gələn qonaqların hər biri əyləşib bizə tamaşa edəcək. Ancaq valideynlərimizdən və müəllimlərimizdən başqa bizə diqqət yetirən olmadı. Kim necə istəyirdi elə də hərəkət edirdi. Məktəbimizə məktəbin şagirdlərindən çox digər məktəblərdən gələn və yoldan ötənlər dolmuşdu. Bəli, dolmuşdular, bu söz nə qədər kobud olsa da belə idi. Zal 300 nəfərlik olmasına baxmayaraq oturanlardan çox ayaq üstə duran var idi. Gələnlərin yarıdan çoxu baxmağa deyil, qeybət etmək, məzunların formasına, saç düzümünə lağ eləməyə gəlmişdi. Hansı ki, biz onların məktəblərinə getsəydik bizə heç qapıdan baxmağa da icazə verilməzdi. Çünki onlarda nizam-intizam güclüdür. Ancaq bizim oxuduğumuz məktəbdə yoldan ötən hər kəs məktəbin zalına girə bilmişdi. Səs-küy olsa da biz hazırladığımız çıxışları belə bir mühitdə başa çatdırmağa çalışdıq. Bəzi səhnələrimizi bitirməmiş çox adam bütün şəhərin söhbətini eliyib qurtardıqdan sonra artıq danışmağa sözləri qalmamışdı deyə çıxıb getdilər. O an məzunların yaşadığı hissi yaşamadan anlamaq çətindir...

Və bitdi... "Son zəng" çalındı. Şagirdlərin hər biri tətil olacaq deyə sevinərkən biz məzunlar sevinclə kədəri eyni anda yaşadıq...

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# QAYĞISIZ İLLƏR



Elə bil dünən idi məktəbə başlamağım, o gözəl, böyük binanın qarşısında maraq dolu gözlərlə dayandığım vaxt... Məktəbə qarşı ürəyimdə sevgi yaranarkən hələ oxumağa başlamamışdım. Hər gün yeni bir şey öyrənib, gəlib həyəcanla nənəmə danışdığım vaxtlar... Bir dəfə qarğanın ömrünün 200 il olduğunu oxuduq kitabda, evə girən kimi tez "nənə, nənə, bilirsən qarğa neçə il yaşayır" deyə həyəcanla müəllimin danışdıqlarını danışmışdım. O günlərə qayıtmaq üçün nələrimi verməzdim...

Zaman necə də tez keçdi. Sinif rəhbərimiz öz tələbəlik illərindən danışanda bəzən kövrəldiyini görürdük, onda nəyə görə bu qədər həsasslaşdığını anlamırdıq. İndi isə başa düşürük, artıq o hisslərin necə bir şey olduğunu biz də yaşadıq. Doğrudan çətin imiş həyatının yarısını bölüşdüyün sinif yoldaşlarından, ana tək üzərində əməyi olan müəllimlərindən, gününün çox hissəsini keçirdiyin doğma məktəbdən ayrılmaq.

Hələ sadəcə bir neçə gündür ayrıyıq bir-birimizdən. Çox kövrək, çox duyğulu, çox həyacanlı bir gün idi o gün. Bilmirdik sevinək, ya kədərlənək. Yollarımızın ayrılacağı üçün kədərlənir, yeni müstəqil bir həyata addım atacağımız üçün sevinirdik.

Necə qəribə hiss idi – hər gün çalınan zəngin o gün çalınmasını heç birimiz istəmirdik. Amma çalındı o zəng bizim üçün, artıq məktəbin şagirdləri yox, məzunları olaraq yadda qaldıq. Əyləndiyimiz müddət ərzində bizi təbrik edən, bizə xoş arzular deyən insanları gördükcə kövrəlirdik. Demək olar ki, həmin gün gözümüzün yaşı qurumadı. Görəsən niyə məktəb illərinin hissi, həyəcanı, xatirələri bu qədər zərif, incə və kövrəkdir... Bəlkə də bu illərin qayğısız olduğundandır, gördüyümüz hər şeyin, hər kəsin yaxşı, saf, təmiz, pak olduğunu düşündüyümüzdəndir. Elə zənn edirdik ki, bu dünyada şər, nifrət, pislik, qaranlıq yoxdur.

Mən 2011-2023-cü illərdə təhsil aldım və bu illərin məndə qoyduğu şirin, unudulmaz xatirələrindən danışmaq istəyirəm sizlərə.

Sinif rəhbərimiz Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edirdi. Hər gün dərsimiz olurdu. Dərs başlamazdan əvvəl hərə bir kənara keçər, əlində kitab təkrar edər, sonra da bir-birimizə danışardıq, bax, harada səhv edirəm deyə. Ön partada kim otursa əvvəlcədən tapşırardıq, bax, kitabı irəli qoy görüm deyə. Müəllim dərsə başlamazdan əvvəl problemlərimizlə maraqlanardı, sonra keçərdik dərsə. Sırayla hər birimizdən soruşardı, bəzən zarafatlar edər, birlikdə gülərdik, bəzən də onu çox əsəbiləşdirərdik. Bizə tez-tez "sizi qoyacam, kim götürür götürsün, yığmısınız məni boğaza" desə də heç qıymazdı ana tək fədakarcasına qayğımıza qalan əziz müəllimimiz...

Tarix dərslərinə olan sevgimizi həmin o müəllimə borcluyuq. Bizə tək müəllim yox, psixoloq oldu. Hər dərdimizə şərik olub həmişə bizə kömək etdi, hər nə olsa ona tərəf qaçdıq. Hər kəsin sevmədiyi, cansıxıcı olduğunu düşündüyü tarix dərsləri istəməzdik bizim üçün bitsin.

Riyaziyyata olan sevgimi anlada bilmərəm. Uşaqlıqdan riyaziyyata böyük marağım olub, rəqəmlərlə aram yaxşı olub. Təməlini ibtidai sinif müəllimimiz qoysa da, davamını bir-birindən savadlı digər riyaziyyat müəllimlərimiz gətirdi. Sadəcə toplama, çıxma, vurma bilirdik, sonra birdən-birə kəsrlər, həndəsə, teoremlər, triqonometriya deyə başqa bir dünyaya keçdik. Bunların hər birini bizlərə o qədər maraqlı yollarla öyrətdilər ki. Səhv yazanda danlamaq əvəzinə daha fərqli üsülla başa salardılar. Mən qısa yollarla yazılan məsələləri lövhə qarşısında uzadardım, müəllim də "aha, mindin avtobusa bütün şəhəri dolandın" deyib həvəsimi qırmaz, sadə yollarını öyrədərdi.

Sizə fizikadan danışım, hamının zəhləsi getdiyi, sevmədiyi fizika dərsindən. Hələ 8-ci sinfə təzəcə başlamışdıq, dedilər yeni fənn artdı, fizika dərsi keçəcəksiniz. Görəsən necə bir dərsdi, müəllimin necə xasiyyəti var deyə həyəcanlandıq. Yuxarı sinif şagirdlərindən soruşub öyrənənlər fizikanın çox bezdirici, çətin olduğunu deyib qorxumuzu daha da artırdı. Sonra gülərüz bir qadın daxil oldu sinfə, hamımız sakitcə baxırdıq. İlk dərsimiz o qədər maraqlı keçmişdi ki, müəllimin izahı, hər şeyi öz sözləriylə başa salması bizdəki qorxunu yox etmişdi. Bəzən güldürərdi verdiyi suallarla: bir kilo pambıqmı ağır olar, bir kilo dəmirmi? Başa düşmədiyimizi görüb yenə soruşardı: başına pambıqmı düşsə ölərsən, dəmirmi? Xoruzu tərəziyə çıxarardıq, bir ayağının üstündə ağırdı, yoxsa iki ayağının? Nyutonun başına düşən almanın zarafatlarını edərdik...

Ən məsuliyyətli dərsimiz kimya dərsi idi. Dəqiqəsini ötürməzdi müəllimimiz, vaxtında dərsə başlayar, vaxtında da bitirərdi. Dərsdən əlavə heç kim heç nə danışa bilməzdi. Yeni il ərəfəsi idi, uşaqlarla qərarlaşdıq ki, sabah məktəbə gedək, oturub söhbət edək, dərslər boş keçəcək. Planladığımız kimi də oldu – bütün günü danışıb, oyunlar oynadıq, kimya dərsində aşağı düşdük, bir də bir nəfər gəlib bizi çağırdı ki, müəllim sizi gözləyir. Hamımız tələşlı sinfə doğru qaçdıq, başıaşağı sinfə daxil olanda müəllim hirsli bir səslə "keçin, test yazırıq" dedi. Neyləyəcəyimizi bilmədik, hazırlıqlı deyildik o gün, o test hər birimizə dərs olmuşdu, çünki yaza bilməmişdik. Semestr sonu idi, qiymətlərimizi aşağı salacaq, vay qara halımıza deyirdik, amma o sərt qadın bir də qayğıkeş bir müəllim idi, o, buna icazə verməmişdi.

Bir də öyrəşə bilmədiyimiz gürcü dili dərsindən danışım. 12 il bizə dərs deyən müəllimimiz gülərüz, mehriban qadın... Bizlərə ən gözəl şəkildə dinindən asılı olmayaraq başqalarının uşaqlarını necə sevməyi öyrətdi. Ürəyinin yumşaqlığından sui-istifadə edib dili öyrəşə bilməsək də, həmişə bizim qayğımıza qaldı, bir dəfə də olsun incidib xətrimizə dəymədi. Onu ən xoş xatirələrlə xatırlayacağıq.

İngilis dili bu gün hər kəs üçün lazımlıdır deyərək 11 il ingilis dili dərsi keçdik. Bəlkə də məktəb həyatında ən stresli keçən günlərim həftənin bu üç günü – ingilis dili dərsi olan günlər olub. Müəllim evə əzbərləməyimiz üçün dialoqlar, mətnlər verərdi. Bundan əlavə, lüğət öyrəşərdik, sözlərin yazılışı ilə tələffüzü fərqli idi. Çox çətin gəlirdi, bütün günü kitab əlimdə, gecəyarısına qədər oxuyardım. Amma nə fayda, oxunulan o qədər dialoqlar, əzbərlənən mətnlər – hamısı danışıldı və o illərdə qaldı...

Təbiət dərslərindən sonra biologiya dərsinə keçid etdik. Biologiya müəllimini heç vaxt unutmaram. İlk dəfə mikroskop haqqında danışanda mikroskopu gələn dərs gətirəcəyini dedi. O gün üçün yod və soğan gətirməyimizi istəmişdi. Mikroskopda soğanın üzərindəki nazik pərdənin quruluşuna baxmışdıq, biz kəşf etmişdik kimi çox sevincli idik. Daha sonra o müəllimlə yollarımız ayrıldı, biologiyaya olan marağımız da elə o müəllimlə birlikdə getdi.

Danışılacaq o qədər xatirələr var ki. Sinif yoldaşlarımızla həm də dost olmuşuq, sevincimizi, kədərimizi bölməyi həmişə bacarmışıq. Şagird olan hər kəsə bu günlərin dəyərini bilin demək istəyirəm. Əgər mənə desəydilər ki, zamanı geri döndərmək olsaydı, sən nə arzulayardın? Düşünmədən cavab verərdim: məktəb illərinə dönmək istəyirəm. Çünki o illər bizim dərdsiz, kədərsiz, qayğısız illərimiz idi və o illər bizi bu günə gətirən yollar idi.

**Aytən Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

**Səkkizinci boy.** Bu dastanın kifayət qədər geniş süjetini bir neçə epizoda ayıra bilərik.

İlk epizod adlı-sanlı paşaların, sərkərdələrin, pəhləvanların, qoşun başçılarının iştirak etdiyi, Koroğlunun ələ keçirilməsi və onun yer üzündən silinməsi məsələsinin müzakirə olunduğu məclisdən söhbət açır. Xotkarın fikrincə, "nə qədər ki, bu Koroğlunun səsi kəsilməyib, dünya üzündə zindəganlıq onlara haram olacaq". Buna görə də xotkar Koroğlunun qoşun yığıb şəhərlərini, kəndlərini alana kimi, vahid bir qüvvə ilə ona hücum etməyə çağırmışdır. Bu məqsədə nail olmaq üçün bir-birinə zidd müxtəlif fikirlər səsləndi. Lakin xotkar Hasan paşanı seçdi və bütün paşaların, qoşun böyüklərinin ixtiyarını ona verdi. Bu, o Hasan paşadır ki, atların üstündə Koroğlunun atası Alı kişinin gözlərinin çıxarılmasını məsləhət görmüşdü.

İkinci epizod nəql edir ki, Hasan paşa Toqata qayıdanda bir məclis təşkil etdi və işi həll etmək üçün strateji planı irəlicədən işləyib hazırladı – Koroğlunu mühasirəyə alıb üç tərəfdən hücum etmək. Lakin aydın oldu ki, Koroğlu ilə savaşdan hamı qaçır və tərəddüd edir. Axırda çox hiyləgər, necə deyərlər, şeytana papış tikən ərzincanlı Bolu bəy bir şərtlə razılığını bildirdi: Toqat paşalığı ona tapşırılacaq, paşanın böyük qızını alacaq; təkcə pəhləvan Qəcəralını və Koroğlunun yanında mehtərlik etmiş mehtər Murtuzu özü ilə götürəcək. Hasan paşa bu şərtlə razılaşdı.

Bu müzakirə-mühakimə zamanı qasid özünü Hasan paşanın yanına yetirdi və Ərəb Reyhanın naməsini ona verdi. Namədə Ərəb Reyhan bu hücumda iştirak etmək istəyində olduğunu ifadə edirdi. Hasan paşanı bu namə bir növ sevindirdi, lakin mehtər Murtuz Hasan paşaya bildirdi, nə qədər ki Koroğlu Qıratın üstündədir, ona heç nə edə bilmərik. Qıratı oğurlamaq da mümkün deyil. Bu məsələnin həll edilməsini məclisin lap başmaq çıxanından cındırından cin ürkən keçəl Həmzə ayağa qalxıb öz öhdəsinə götürdü. O şərtlə ki, paşa kiçik qızını ona verməlidir. Hasan paşa buna da razı oldu.

Üçüncü epizod keçəl Həmzənin Çənlibelə çatdığını, Koroğlu ilə görüşünü, ona özünü həddsiz dərəcədə bədbəxt, ümidsiz göstərməsini və özünü yazıqlamağını nəql edir. Koroğlu da ehtiyac içində olanlara, fəqir-füqəraya biganəlik göstərmirdi və keçəl Həmzəni də sığındırır. Dəlilər onu görən kimi onun gözlərini bəyənmədilər. Bunu haradan tapıb gətirdin? Bunun gözləri üçtəpə sağsağanının gözləri kimi qayır-qayır qaynayır. Məsləhət gördülər ki, rədd eləsin. Xanımlar da dəlilərin sözlərini təsdiqlədilər.

Lakin Koroğlu onlara qulaq vermədi. Keçəl Həmzə də öz zirəkliyini göstərdi, xanımların və dəlilərin dediklərini, getdiyi işi yaxşıca yarıdırdı. Ona nail oldu ki, Düratа baxılması ona həvalə olundu. Bu işə görə xanımlar və dəlilər Koroğlunu məzəmmət etdilər: Tanımadığın, bilmədiyin adama etibar eləyib Düratın buxov açarını niyə verirsən? Koroğlu bu məzəmməti də heçə saydı. Qısası, keçəl Həmzə Düratı qaçırtdı və yola düşdü. Dəlilər və xanımlar Koroğlunun üstünə düşdülər, başladılar onu məzəmmət etməyə: Gör iş nə yerə gəldi ki, keçəl gədənin birisi gəlib buradan at apardı.

Koroğlu özünü günahkar olaraq hiss edir və heç nə demir. Nəhayət, atı yəhərlətdi, atını minib yola düşdü.

Koroğlu yolda keçəl Həmzəyə yetişir. Qorxuya düşmüş keçəl Həmzə yenə hiyləgərliyə əl atır və tüpürcəyi qurumuş halda özünü tez dəyirmana salır, dəyirmançını qorxudur ki, bax, o yol ilə gələn Koroğludur. İlxısına qotur düşüb, həkim kimyagər dəyirmançı beyni buyurub... Soyun paltarını, al mənim paltarımı geyin. Get dəyirmanın donuzluğunda gizlən. Bu ərəfədə Koroğlu da özünü dəyirmanın qapısına yetirdi və çığırdı: Ay dəyirmançı, çölə çıx! Keçəl Həmzə dəyirmançı paltarında üz-gözü una bulaşmış halda qapıya çıxdı. O, axtardığı adamın hara gizləndiyini işarə etdi. Koroğlu da atdan düşdü, yüyəni keçəl Həmzəyə etibar etdi və dəyirmana cumdu. Dəyirmançı gizlənməyə çalışırdı, Koroğlu isə onu çəkib çıxarmaq istəyirdi. Bu ərəfədə keçəl Həmzə Qırata minir və özünü artıq qalib kimi hiss edir.

Burada Koroğlu ilə keçəl Həmzə arasında dialoq baş verir. Bu dialoqdan müəyyən olunur ki, Həmzəni Hasan paşa göndərib. Koroğlu keçəl Həmzəyə nə təklif etmədi, amma bir şey alınmadı. Onda Koroğlu keçəl Həmzəyə tapşırdı ki, mən gəlincə, ata yaxşı bax, qoyma incitsinlər.

Əliboş və ac Koroğlu rastına çıxan bir kişinin öküzünü əlindən aldı, kabab bişirdi, yedi. Sahibinə onun dəyərini ikiqat ödədi.

Dəlilər eşitdilər ki, Koroğlu Qıratı da itirdi və hansısa yaramaz quldura aldandı. Onların sözləri Koroğlunun yanında "çürük qoz" olmadığından oraları tərk etmək qərarına gəldilər və getməyə hazırlaşdılar. Nigar xanım da üzünü o yana çevirdi və hətta məzəmmət də etdi. Koroğlu getdi və öz təqsirini başa düşdü, yaşıl çəməndə üç gün, üç gecə tamam ac, susuz yatdı. Koroğlu yuxuda gördü ki, Toqatda Hasan paşanın qabağındadır və Qırat da altında. Diksinib yuxudan oyandı. Nəhayət, dəlilər də, xanımlar da onunla barışdılar və məclis qurdular. Koroğlu əməlli-başlı silahlandı və dava libasının üstündən bir kürk geyindi, çiyninə də bir saz keçirib pay-piyada Toqata tərəfə yola düşdü.

Dastanın bu epizodu Koroğlunun Toqata necə getdiyini, ona naz satmağa başlayan, Koroğluda da yumor hissini oyadan və sazda oxudan bir dişsiz qarının evində məskunlaşdığını bizə nəql edir.

Sonda Koroğlu aşıq paltarında Hasan paşanın imarətinə getdi və Koroğlunu bir aşıq olaraq çəkib məclisə apardılar. Koroğlu müxtəlif mahnılar oxuyur və Qırat barəsində dinləyiciyə məlumat verir ki, at çox yaxşı atdı, lakin hərdənbir dəliliyi tutur və onu yalnız aşıq sazla rahatlaya bilər. Bir sözlə, o, Qıratın belinə minməyə nail olur, Hasan paşa öz məiyyəti ilə bürcə dırmaşır.

Axırda Koroğlunun yollarını kəsirlər və o da böyük savaşla həddindən çox döyüşçü qırıb-batırır və Çənlibelə qayıda bilir. Hamı sevinclə onun qarşısına çıxır. Nigar xanım onunla zarafat edir: "Koroğlu, biz sənin Koroğlu olmağını bilirdik. Əgər bilməsəydik sənin başına yığılmazdıq. Düzdü, igidsən, qoçaqsan, iş üzü bilirsən. Amma sir-sifətdən çox qarasan ey!.. Dəlilər hamısı gülüşdü" *(Bax: "Koroğlu", səh. 356).*

Nigar xanımın Koroğlunu sir-sifətdən qara olaraq xatırlaması bu iki insanın səmimi məhəbbəti barədə fəryad edir. Oxucu hiss edir ki, bütün bunlar bu yumorun çaları ilə bəzənib. Bu isə onu göstərir ki, epos real məişətdən və həyatdan üzülməmişdir, onu yaradıcısı yaxşı anlayır və yumorun qədrini dərk etmişdir, oxucuya təsir emosiyasının potensialına malikdir. Koroğlu ilə dişi tökülmüş qarı arasındakı münasibətin komik şəkildə təsvir olunduğu başqa epizodda da bundan xəbər verir. Misilsiz zahiri görünüşünə necə heyran qalması, ona necə naz eyləməsi, ona qarı deməməsini qadağan etməsi, "mənə niyə qarı deyirsən" deməsi, öz dövləti ilə özünü bəyənməsi, Koroğluya arvad olmaqdan imtina etməmək niyyətində olduğu gülüş doğurur. Bu durumda da Koroğlunun yumor hissi xəyanət etmir, sazı sinəsinə basıb deyir:

Bir qarıya qonaq oldum,
Nə yaman çamxanası var.
Dövlətini xəbər aldın,
Bir inək, bir danası var.

Qarı gəlir bizə yavuq,
Elə bil ki, tutub soyuq.
Çeşdəliyə bircə toyuq,
Axşama qayğanası var *(Qayqanağı-M.M).*

Koroğlunun hədyan işi,
Qovğadan açılmır başı.
Düşüb otuz iki dişi,
Bir kötük nişanəsi var *(Bax: "Koroğlu", səh. 300; 341).*

Bu şeir də bizi əmin edir ki, Koroğlu yumor hissi ilə dolu insandır!

Lakin elə bu boydan anlayırıq ki, onu aldatmaq asandır və hiyləgər keçəl Həmzə onu iki dəfə hərifldi. Eyni zamanda Koroğlu inadkardır və sözünün yiyəsi olan adamdır, başqasının tövsiyəsinə qulaq vermir. Buna görə də Qıratı itirdi, xanımların və dəlilərin narazılığına və narahatlığına səbəb oldu. Lakin o öz səhvini dərk edir və çox əzab çəkir.

Dastanın sonunda Koroğlu ağlı ilə, zəkası ilə fərqlənir. O, özünün sazı ilə, oxuduğu aşıq mahnıları ilə Hasan paşanın və onun ərafındakıların ağlını çaşdırır, Qıratın dəliliyinə tərif qoşur və bu vasitə ilə onu ələ keçirir. Lakin estetik baxış dairəsi ilə onun Qıratı təriflədiyi, şöhrətləndirdiyi mahnılar diqqəti cəlb edir. Halbuki onun Qırat ilə görüşü və bir-birinə nəvaziş göstərməsi daha güclü emosiyalı hissin oyadıcısıdır. Burada təkcə at ilə onun sahibinin qarşılıqlı əlaqəsi deyil, eləcə də iki bərabər dostun görüşü ilə doğan hiss verilmişdir ki, bu da təəccüblü deyildir. Çünki Koroğlu ilə Qıratın əlaqəsi, xeyirdə, şərdə ideal səviyyəyə qaldırılmış və bu qəhrəmanlıq eposunun fikirlərinin məntiqi inkişafını tamamilə izləyir. Oğuz, azərbaycanlı igidi üçün atını itirmək, illah da ki döyüşdə, təcrübəli, sədaqətli həyat yoldaşını və dostunu itirməyə bərabərdi. Və nəhayət, əlahiddə şəkildə qeyd etmək lazımdır ki, bu dastanda nəqli həddindən artıq tez-tez dialoq əvəz edir, bu da, yuxarıda dəfələrlə qeyd etdim, nəqlin gedişini canlandırır, stimullaşdırır və hadisələrin verilməsinə reallıq effekti gətirir.

**Doqquzuncu boy.** Bu dastanda aşıq Cünunun kənd-kənd, şəhər-şəhər necə gəzdiyi, Koroğlunu tərif və məşhuri-cahan etməsi nəq edilir.

Gözəl günlərin birində o, gəzə-gəzə Ruma çıxdı. Rum paşasının qızı Məhbub xanım onu yanına çağırtdırdı. Koroğlu və Çənlibel barədə ondan ətraflı soruşdu və sonra ona dedi ki, Koroğlunun yanına gedərsən və ona deyərsən ki, Rum paşasının qızı Məhbub xanım deyir, ona deməli bir sirrim var, amma gərək özünə deyəm.

Aşıq hər şeyi Koroğluya danışdı, Koroğlu elə həmin an Qıratı yəhərlətdi və getməyə hazırlaşdı. Lakin Nigar xanım keçəl Həmzəni xatırlatdı, məsləhər gördü ki, Ruma uşaqlardan biri getsin. Dəlilər də bu fikri bəyəndilər. Koroğlu razılaşdı, Rum diyarına yaxşı bələd olduğundan Bəlli Əhmədi göndərdi. Bəlli Əhməd də saz çiynində Rum küçələrində gəzir. Sonra Məhbub xanımın yanında görünür və ona bir müştəri gözüylə baxır: Gördü ki, elə doğrudan da Məhbub ki, Məhbub. Bəlli Əhməd də başdan Məhbub xanımın xoşuna gəlmişdi və hələ bir sataşdı da: "Hər çalana qulaq asmaq olmur, aşıq, bəlkə heç sənin çalmağın, oxumağın bizim xoşumuza gəlməyəcək". Bəlli Əhməd də gecənin bir aləminə kimi çalıb-oxuyurdu. Nəhayət, Məhbub xanım "Bəsdir, aşıq, yoruldum" dedi və hamı dağılışdı.

O, gecəyarısı Bəlli Əhmədin yatdığı otağa daxil oldu və ona dedi: "De dur, atı hazırla, gedək! Gecə keçir!" Lakin Bəlli Əhməd yox dedi, aşığın birini sındırmışan, aşıq Cününa bu halda qaytara bilmərəm dedi. Məhbub gördü ki, bu dediyindən dönən deyil, axırda əlacsız qalıb razılaşdı. Bəlli Əhməd bir sazbənd yanına getdi. Ustaya dedi, başına dönüm, bunu tez qayır, yol adamıyam, gedəsiyəm. Bu sazbənd dili acı, tərs, kobud, qanacaqsız adam imiş. Bəlli Əhməd nə qədər yalvardı, nələr vəd etdi, bir şey çıxmadı. Axırda Koroğlunun da adını xatırladı. O, Koroğlunun adını eşidən kimi söyüşə-təhqirə keçdi. Onu qovmaq istədi. Buna Bəlli Əhməd dözə bilmədi. Sazı onun təpəsinə elə vurdu ki, saz parça-parca oldu, ustanın da başı yarıldı. Usta özünü birtəhər bayıra saldı, hay-küy qopardı, "Kömək edin, Koroğlu məni öldürdü" dedi. Bütün Rum sakinləri axışıb bura gəldilər. Bəlli Əhməd dükandakı sazlardan birini seçdi. Pulunu da piştaxtanın üstünə qoydu. Sazı çiyninə alıb bayıra çıxdı. Bir də gördü ki, qoşun ətrafını bürüyüb. Sazı çiynindən bir tərəfə atdı. Misri qılıncı çəkib, özünü verdi qoşuna. Qoşundan o qədər qırdı ki, meydanda leş-leşin üstündə dayandı. Lakin axırda döyüşə-döyüşə onu geriyə getməyə məcbur etdilər və bizim bu dəlimiz guppultu ilə quyuya düşdü, paşa onun daş-qalaq edilməsi əmrini də verdi.

Lakin işə Məhbub xanım qarışdı, atasını əmin etdi ki, bu, Koroğlu deyildir və onun dəlisidir. Onu daş-qalaq etmək Koroğlunun qəzəbinə və hücumuna səbəb ola bilər. Xotkar indiyə kimi hansı paşanın harayına gedib ki, sənin də harayına gəlsin. Onu da xatırlatdı ki, Koroğlu öz dəlisini xilas etməyə gələcək. Onun üçün tələ quraq və elə tutaq. Onun qoşunu üçün isə quyular qazılsın, daşlar yığsınlar, ağızlarını həmin quyuya salarıq, başlarına da daşları tökərik.

Bu ərəfədə Məhbub xanım öz qarabaşını Koroğlunun yanına göndərdi və həm də ona namə yazdı. Qarabaş Düratın köməkliyi ilə tezcə Çənlibelə çatdı və hər şeyi Koroğluya danışdı. Koroğlu atı yəhərlətdi və getməyə hazırlaşdı, lakin yenə Nigar xanımın tövsiyəsi ilə getməkdən imtina etdi. Tanrıtanımazı və Tüpdağıdanı silahdaşlarını xilas etmək üçün göndərdi. Dəlilər Ruma çatanda gecə idi və gördülər ki, meydanın bir tərəfində beş-altı nəfər keşik çəkir. Bir neçə keşikçinin öhdəsindən gəlmək onlara çətin olmadı. Dustağı quyudan çıxartdılar, atlara mindilər, getməyə hazırlaşdılar. Lakin aydın oldu ki, Məhbub xanım və onun əmisi qızı Şirin xanım onlarla birlikdə Çənlibelə qaçmaq istəyirdilər və onlarla birlikdə səhər tezdən, gün yeni çıxan zaman Çənlibelə çatdılar. Sonluq yaxşılıqla bitir. Bəlli Əhmədin Məhbub xanıma, Tüpdağıdanın Şirin xanıma, Dəli Mehtərin qarabaşa könlü var. Koroğlu yeddu gün, yedi gecə toy elədi.

Bu dastanın əsas fəaliyyətdə olan personajı, gözəlliyi ilə, ağlı və kamalı ilə fərqlənən Rum paşasının qızı Məhbub xanım, bir sözlə, "necə deyərlər, deyəsən lap xoş gündə dünyaya gəlmişdir" *(Bax: Elə orada, səh. 358).* Məhz elə bu gözəl, ağıllı və kamallı qıza asılmaqdan xilas etdiyinə görə Bəlli Əhməd minnətdar olmalıdır. Məhbub xanım əsir düşmüş dəliləri asdırmaq fikrindən atasını daşındırdı. Sonra onları xilas etdirmək üçün öz qarabaşını Koroğlunun yanına göndərdi. Və nəhayət, Bəlli Əhmədi xilas edən dəlilərdən Tanrıtanımaz və Tüpdağıdanla birlikdə o, eləcə də gözəlliyi və ağlı-kamalı ilə fərqlənən onun əmisi qızı Şirin xanım Çənlibelə qaçıb getdilər.

Bu dastanda həmçinin Bəlli Əhmədlə sazbənd arasında olan, ustanın başının yarılması və Bəlli Əhmədin dustaq düşməsi ilə bitən epizod diqqət çəkir. Bu epizodda Bəlli Əhmədin xarakteri aydınca özünü büruzə verir, onu səbrli bir insan kimi göstərir. Lakin Koroğlunun məzəmmət edilməsini eşitməklə bu qabiliyyəti itirir.

Bu baxımdan, həmçinin, quyuya salınmış Bəlli Əhmədlə Rum paşası arasında olan dialoq maraqlıdır. Rum paşası özünü öyür və lovğalanır: "Hə... Mənə də Rum paşası deyərlər. Sənin o Koroğlunu bir Koroğlu eləyim ki, biri də yanından çıxsın". Bəlli Əhməd aşağıdan deyir: "Paşa, Koroğluya kələkələlər nə eləyib ki, sənin kimi kərtənkələlər nə eləsin?" Və bu avazda onların deyişməsi davam edir, bu zaman da Bəlli Əhməd sakitliyi qoruyub saxlayır və qəzəblənmiş, nə edəcəyini bilməyən rəqibini kinayə ilə sancır.

Bu dialoqdan görünür ki, Koroğlunun nüfuzu dəlilər və ümumiyyətlə, camaat arasında toxunulmazdır. Məhz elə bu, xotkarı, paşaları, bəyləri özündən çıxardır, onlara rahatlıq vermir. Bu görüş dairəsinin yayılması və bərqərar olunması bu qəhrəmanlıq eposunun ən başlıca motivi və yaradıcının əsas məqsədidir.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ეხი თოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY
2023-CÜ İL
№ 010 (181)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# ƏLİ ƏLİYEVİN "ŞÜURALTININ TİTRƏYİŞİ" ADLI FƏRDİ SƏRGİSİ KEÇİRİLİB



Mayın 20-si Gürcüstan Rəssamlar İttifaqının sərgi salonunda peşəkar rəssam Əli Əliyevin "Şüuraltının titrəyişi" adlı fərdi sərgisi keçirilib.

Sərgidə rəssamın son illərdə abstrakt və sürrealizm üslubunda yağlı boya ilə çəkdiyi 26 əsəri nümayiş etdirilib.

Əli Əliyevin sözlərinə görə, adsız tabloları tamamlanmış kompozisiyaları əks etdirir və hər birinin mənasının dərk olunmasını izləyicinin təxəyyülünün ixtiyarına buraxır.

O, bildirib ki, əsərlərindəki rənglər və formalar tablonu çəkərkən onun düşüncələrini və əhval-ruhiyyəsini əks etdirir, bu düşüncələr və əhval-ruhiyyənin vasitəsilə şüuraltının titrəməsindən yeni tablolar yaranır.

Əli Əliyev 1989-cu ildə Qardabani bələdiyyəsinin Ağtəhlə kəndində doğulub. 2004-cü ildə Ağtəhlə orta məktəbini bitirən Əli 2004-2008-ci illərdə İ.Nikoladze adına Rəssamlıq Texnikumunda təhsil alıb. O, rəssamlıq təhsilini davam etdirərək 2010-2015-c illərdə A.Kutataladze adına Tbilisi Dövlət Rəssamlıq Akademiyasında rəngkarlığın sirlərinə yiyələnib. İndiyənə kimi rəssamın biri Almaniyanın Berlin şəhərində olmaqla yeddi fərdi sərgisi keçirilib.

# MÜƏLLİMLƏRİN ANALIQ MƏZUNİYYƏTİ HAQQINDA 6 SUAL VƏ CAVAB



Müəllimlərin analıq məzuniyyəti ödənişi ilə bağlı cavabı dəqiq verilməyən suallar mövcuddur. Pedaqoqlar hələ də həmin suallara cavab ala bilməyiblər. "Etaloni.ge" saytı müəllimlərin analıq məzuniyyəti ilə bağlı bir neçə suala aydınlıq gətirib:

**– 40 günlük ödənişli məzuniyyəti analıq məzuniyyəti ilə birləşdirə bilərikmi?**

– Bəli, bu, mümkündür, əgər həmin il ödənişli məzuniyyətdən yararlanmayıbsınızsa birləşdirə bilərsiniz.

**– Ödənişli analıq məzuniyyəti neçə gündür?**

– Ödənişli analıq məzuniyyəti 183 təqvim günüdür (126 təqvim günü hamiləlik dövrü üçün və 57 təqvim günü doğuşdan sonrakı gün, yəni uşağa qulluq göstərmə üçün (qulluq göstərmə məzuniyyətini atalar da götürə bilərlər). Əkiz uşaqlar doğulduğu halda 200 təqvim günü (doğuşdan əvvəl 143 təqvim günü, doğuşdan sonra 57 təqvim günü). Qeysəriyyə əməliyyatı zamanı 200 təqvim günü.

**– Sosial agentlikdən uşaq dünyaya gətirən qadına verilən məbləğ nə qədərdir?**

– 2000 lari.

**– Bəs məktəbin verdiyi məbləğ?**

– Məktəb 6 ayın əməkhaqqını verir; 2000 lari sosial agentlik verir və qalanını məktəb köçürür (hər ay və ya birdəfəyə).

**– Müəllim iki məktəbdə işləyirsə necə olur?**

– Sosial agentlik 2000 lari verir və hər iki məktəbdə 2000 lari çıxılır, qalanı əməkhaqqı olaraq müəllimə köçürülür.

**– Əməkhaqqı dedikdə nə nəzərdə tutulur?**

– Əməkhaqqı dedikdə bütün əlavələr (status əlavəsi, sinif rəhbəri əlavəsi, dağlıq məntəqə məktəbi müəllimi statusu əlavəsi və s.) nəzərdə tutulur.

*Mənbə: etaloni.ge*

# UKRAYNADA GÜRCÜSTANIN ADININ SAKARTVELO OLARAQ DƏYİŞDİRİLMƏSİ TƏKLİF OLUNUB




Ukrayna Ali Radası Gürcüstanın rəsmi olaraq Sakartvelo adlandırılmasını təklif edib.

Qanun layihəsinə izahat yazısında qeyd olunur ki, ölkədə rəsmi səviyyədə, rəsmi yazışma və ünsiyyətdə, eləcə də KİV-də Gürcüstanın əvəzinə Sakartvelo rəsmi və tarixi adı təqdim edilməlidir. Həmçinin gürcü xalqının rəsmi olaraq kartvellər adlandırılması təklif edilir.

Qanun layihəsinin müəllifləri hesab edirlər ki, bu addım Kiyev və Tbilisini bir-birinə yaxınlaşdırmaqla yanaşı, ölkənin "ruslaşmış" adından da xilas olacaq.

Sakartvelo "Kartvel ölkəsi" – Zaqafqaziyanın avtoxton əhalisi kimi tərcümə olunur. Əksər dillərdə ölkə Gürcüstan dövlətinin latın adından götürülüb.

2021-ci ildə Litva Dili üzrə Dövlət Komissiyası rəsmi olaraq Gürcüstanı Sakartvelo adlandırıb.

# "GEORGIAN AIRWAYS" GÜRCÜSTAN PREZİDENTİNİ TƏYYARƏYƏ BURAXMAYACAQ



Gürcüstanın milli aviadaşıyıcısı "Georgian Airways" Gürcüstan prezidenti Salome Zurabişvili şirkəti boykot etdiyini və onun xidmətlərindən imtina etdiyini bildirdikdən sonra onu təyyarələrinə buraxmayacaq.

Bu barədə Gürcüstan Hava Yollarının təsisçisi Tamaz Qaiaşvilinin yaydığı bəyanatda deyilir.

"Xanım Salome milli aviaşirkəti boykot etdiyini açıqladı. Biz gürcü xalqından üzr istəməyincə onu persona non qrata elan edirik, onu təyyarəyə buraxmayacağıq", – deyə T.Qaiaşvili açıqlamasında bildirib.

# GÜRCÜSTANDA 9998 NƏFƏR HİVƏ YOLUXUB




Dünya QİÇS qurbanlarının anım günü Gürcüstanda özünəməxsus şəkildə qeyd edilib. Gürcüstanın İnfeksiya Patologiyası, QİÇS və Klinik İmmunologiya üzrə elmi-praktik mərkəzi "Gəlin xatırlayaq və hərəkət edək" adlı aksiya-performans və mətbuat konfransı keçirib.

Mərkəzin məlumatına görə, hazırda Gürcüstanda 9998 nəfər HİV xəstəsi qeydiyyatdadır. Onların 7464-nü kişilər, 2534-nü isə qadınlar təşkil edir. Xəstələrin böyük əksəriyyəti 29-39 yaş arasında olan insanlardır və onların 4885-i QİÇS səbəbindən həyatını itirib.

İndiyədək dünyada 84,2 milyon insan bu virusa yoluxub və onların 40,1 milyonu ölüb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.